# Dünya mədəniyyəti inkişafına böyük töhfə

## V Qəbələ Beynəlxalq Musiqi Festivalı

Qəzetimizin ötən sayında xəbər verdiyimiz kimi Şərqlə Qərbin qovşağında yerləşən, 11 iqlimdən 9-na məxsus Doğma Azərbaycanımızın ən dilbər guşələrindən biri olan Qəbələdə 5-ci dəfədir ki, Beynəlxalq Musiqi Festivalı keçirilir. İyul ayının 24-də yüksək təntənə ilə açılan festival avqust ayının 6-dək davam edəcəkdir. Bu musiqi bayramı artıq Heydər Əliyev Fondunun möhtəşəm mədəniyyət layihələrindən biri kimi dünyanın bir çox ölkələrində böyük əks-səda doğurmuşdur. Hər il festivalda ayrı-ayrı ölkələrindən müxtəlif mədəniyyətləri təmsil edən dünya şöhrətli musiqi xadimləri, eləcə də istedadlı gənc ifaçılar iştirak edir, festival çərçivəsində gənc pianoçuların beynəlxalq müsabiqəsi keçirilir, gənc ifaçılar üçün ustad dərsləri təşkil olunur. Bu il də sürətli inkişaf və yeni dirçəliş dövrunu yaşayan doğma Qəbələmizdə görkəmli musiqi xadimlərimizin dediyi kimi dünya mədəniyyəti inkişafında xüsusi rol oynayan, bu mədəniyyətə böyük töhfə verən festivalda Azərbaycandan, Rusiyadan, Türkiyədən, Böyük Britaniyadan, ABŞ-dan, İtaliyadan, Fransadan, Koreyadan, İsraildən, Litvadan, Kubadan, Qazaxıstandan və digər xarici ölkələrdən görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edirlər. Buna misal olaraq konsertlərdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrini, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestrini, İsrailin Yerusəlim Simfonik Orkestrini, «Yeni Rusiya» Simfonik Orkestrini, Kuba caz qrupunu, görkəmli musiqiçilərdən Yuri Başmeti, Boris Berezovskini, Vadim Repini, Oksana Yablonskini, Dmitri Yablonskini, Benyamini, Karmelo Korrado Karuzonu, Nina Koqanı, Ayman Musaxacayevanı və bir sıra görkəmli Azərbaycan musiqiçilərini misal göstərmək olar.





Festival ötən bir həftə ərzində çox uğurla davam etmişdir. İstər «Qafqaz» resort hotelin kamera zalında, istərsə də açıq səhnədə keçirilən konsertləri minlərlə qəbələlilər və qonşu rayonlardan, xarici ölkələrdən gələn musiqisevərlər alqışlarla qarşılamışlar.

İyulun 25-də açıq səhnədə «Viva Verdi!» adlı konsert dahi İtalyan bəstəkarı Guzeppe Verdinin 200 illiyinə həsr olunmuşdur. Dünya şöhrətli çox böyük dahi bəstəkarın 200 illik yubileyinin Azərbaycanda, onun ucqar bir bölgəsində keçirilməsi Azərbaycanı bir daha xarici qonaqlara tanıdır, həm də çoxsaylı yerli musiqisevərləri bir daha dünya bəstəkarlarının klassik əsərlərini canlı dinləməyə imkan yaradır.

İyulun 26-da kamera musiq axşamında Azərbaycan bəstəkarlarından Niyazinin, Tofiq Quliyevin, Qara Qarayevin, Fikrət Əmirovun, Rauf Hacıyevin, Süleyman Ələsgərovun, Müslüm Maqomayevin operalarından parçaları, ariyaları və digər əsərləri dinlənilmiş, açıq səhnədə isə Kuba caz qrupunun konserti olmuşdur.

İyulun 27-də isə violin və piano ifaçılarından Lalə Hüseynovanın, Kəmalə Nemətovanın İlahə Sadıqzadənin, Aydan Salahovanın, bir sıra nüfuzlu beynəlxalq musiqi festivalarının iştirakçıları Fəridə Məmmədovanın, Səbinə Əsədovanın çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır. Həmin gün açıq səhnədə isə Yerusəlim simfonik orkestrinin çıxışı olmuşdur.

İyulun 28, 29, 30-da keçirilən konsertlər də tamaşaçılar tərəfindən çox yüksək səviyyədə sevilərək qarşılanmışdır. Ümumiyyətlə hər bir konsertin özünəməxsus seçimi, özünəməxsus gözəlliyi vardır. Burada təbiətin harmoniyası ilə ürəkləri riqqətə gətirən musiqinin ahəngi hər bir dinləyicidə istər-istəməz xüsusi zövq yaradır, onu saysız-hesabsız xəyallar aləminə, əlçatmaz, ünyetməz gözəliklər dünyasına aparır.

**Nadir ATAKİŞİYEV.**

**Fotolar S. Umuyevindir.**

---

## V Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində vokalçıların Bülbül adına Beynəlxalq müsabiqələri qaliblərinin konserti olmuşdur

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən V Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində iyulun 28-də vokalçıların Bülbül adına Beynəlxalq müsabiqələrinin qaliblərinin konserti olmuşdur.

Məşhur italyan musiqiçi Mirko Roverellinin dirijorluğu ilə keçirilən konsertdə Yerusəlim Simfonik Orkestri klassik Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən parçalar səsləndirmişdir.

"Viva opera" adlı konsertdə Azərbaycan, Rusiya və Türkiyədən tanınmış ifaçılar - Sergey Leyfekus, Burçin Savigne, xalq artisti Əli Əsgərov, əməkdar artist Elçin Əzizov, Azər Rzazadə, Fəridə Məmmədova, Yusif Eyvazov görkəmli bəstəkarlar Cüzeppe Verdinin "Bal-maskarad", "Simon Bokkaneqra", "Otello", Umberto Cordanonun "Andre Şenye", Cakomo Puççininin "Turandot", "Toska", "Çio-Çio San", eləcə də Qara Qarayev, Cövdət Hacıyevin "Vətən" operalarından parçaları təqdim etmiş, gözəl çıxışları ilə dinləyicilərin qəlbinə yol tapmışlar.



Məharətli ifası ilə dünyaya səs salan Yerusəlim Simfonik Orkestrinin müşayiəti ilə keçən konsertdə Azərbaycan tamaşaçılarına və xarici ölkələrdən Qəbələyə gəlmiş turistlərə unudulmaz gecə bəxş edilmişdir.

Daha sonra səhnəyə çıxan Bülbül Fondunun prezidenti, Azərbaycanın Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri, xalq artisti, professor Polad Bülbüloğlu tamaşaçıları salamlamış və festivalın ərsəyə gəlməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya dərin minnətdarlığını bildirmişdir. Səfir demişdir: "Bu gün Azərbaycanın regionlarının sürətli inkişafı Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı uğurla davam etdirdiyini bir daha göstərir. Mən çox sevinirəm ki, paytaxtla yanaşı, bölgələr də inkişaf edir. Qəbələ son vaxtlar çox gözəl və müasir şəhərə çevrilmişdir. 2013-cü il üçün MDB-nin mədəniyyət paytaxtı elan olunmuş Qəbələdə bu illər ərzində bir neçə mədəni-humanitar tədbir keçirilmişdir. Gözəl hotellər, yollar, hava limanı və digər imkanlar festivalın yüksək səviyyədə təşkil olunmasına şərait yaradan amillərdir. Mən bir azərbaycanlı olaraq bu uğurlara çox sevinirəm".

Xalq artisti Polad Bülbüloğlunun ifasında "Gəl ey səhər", "Azərbaycan", eləcə də "Ay dilbər", "Xumar oldum" xalq mahnıları tamaşaçıların sürəkli alqışları ilə qarşılanmışdır.

**Foto S. Umuyevindir.**